

# Amaliya Pənahovanın "SEVGİ ETİRAFI"

## *Qadınlar hər yaşda gözəl, cazibədar, sevilən ola bilir...*

...çünki təbiət onları ömrün bütün fəsillərində təravətli qalmaq qüdrətində yaradıb

"Bu məsum arzunu bütün varlığı ilə reallaşdırmış bir sənətkar qadının işığına toplaşmışdı hamı... "Zaman mənə tabe olacaq bu gündən" deyən, isti bir iyul axşamı Heydər Əliyev Sarayının möhtəşəm səhnəsində illərə qalib gələn bir bənzərsiz qadın zərifliyinin lətafəti dilə gəldi. Xalq artisti, görkəmli teatr və kino xadimi, pedaqoq Amaliya Pənahova təbəssümlə dolu ömrünün növbəti dayanacağında da sonsuz sevgisindən pay umanların qarşısına çıxdı...



ğında köçdüyünü deyən nazir, aktrisanın zəngin yaradıcılıq yoluna nəzər saldı. Ömrünün 50 ilini Azərbaycan mədəniyyəti və incəsənətinin təbliğinə, inkişafına həsr edən aktrisanın öz adını Azərbaycan teatr və kinosu tarixinə qızıl hərflərlə yazdırdığını bildirdi.

Nazir universal istedadı və səhnə sevgisi sayəsində yüksək fəxri adlara, orden və medallara layiq görülən sənətkarın bugünlərdə mədəniyyətimizin inkişafında böyük xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunduğunu dedi, ölkə başçısı adından yubilyarı təbrik edərək fəxri diplomu təqdim etdi.

Təbrik sıralamasına Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Teatrları baş idarəsinin incəsənət əlaqələri üzrə koordinatoru Tahsin Murad Dəmirbaş, Azərbaycanın TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov, Bakı Dövlət Universitetinin rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, millət vəkili Hadi Rəcəbli, Yeni Azərbaycan Partiyası qadın təşkilatlarının rəhbərləri və bir çox başqaları qoşuldular.

Sarayın möhtəşəm salonu öz sənətilə yarım əsri geridə qoyan bir sənətkarın işığı, bir qadının və aktrisanın ecazkarlıq ab-havasında idi. "Amaliya Pənahovanın sevgi etirafı" adlı yubiley gecəsində ona ən xoş hisslərini gur alqış və gül-çiçək yağışı ilə bildirən tamaşaçılar, sənətkara təbriklərini həyəcanla, gənclik eşqi ilə dilə gətirən həmkarları gecəni romantik etiraflara bürüdülər.

Bu mənzərədən məmnun, üzü-gözü təbəssümlü yubilyar isə xəfif bir utancaqlıqla tamaşaçı qarşısında təzimdən yorulmur, onları illərlə oynadığı tamaşalardan ilhamla canlandırdığı fraqmentlərlə zamanın dayandığı inandırmağa çalışırdı...

Əslində, bu "nağıl gecə"nin qəhrəmanı bunu bacardı da. Gah tarixi qadın qəhrəmanlarının hökmlü səs-səda və görkəmində, gah gənc qız obrazlarının şıltaqlığında, gah da ehtiraslı sevgililərin canlı təfsir-təsvirində zaman və məkan anlayışlarını xəyalların, yaddaşların Allah bilir, hansı küncünə qovdu.

Dövlət və hökumət rəsmilərinin, millət vəkilləri, elm-mədəniyyət-incəsənət xadimlərinin, habelə xaricdən gəlmiş məşhur simaların qatıldığı mərasimdən öncə, sarayın foyesində sənətkar ömrünün foto yaddaşı vərəqləndi. 50 illik sənət tarixçəsinin fotolardakı ayrı-ayrı məqamları - aktrisanın hələ ali məktəbin 1-ci kursundaykən oynadığı ilk rolundan tutmuş çəkildiyi son filmlərədək yaratdığı bənzərsiz qəhrəmanlarının simaları müxtəlif nəsillərin nümayəndələrinə nostalji hisslər yaşatdı.

Sonra səhnədə "Amaliya Pənahovanın sevgi etirafı" və ona olan təbriklər sıralandı. Xoş sözlər, səmimiyyət dolu çıxışlar, alqışlarla müşayiət olunan səhnəciklər bir-birini əvəz etdi.

> Gecədə ilk olaraq mədəniyyət və turizm naziri Əbülfəs Qarayev sənətkara təbriklərini çatdırdı, Azərbaycan teatr və kino sənətinin gözəl qadın simalarından biri olan Amaliya Pənahovanın bənzərsiz sənət dünyasından, yaradıcılıq axtarışlarından, bir-birindən maraqlı obrazlar qalereyasından söz açdı.

İstər dünya, istərsə də milli dramaturqların əksər qadın obrazlarının tamaşaçı yaddaşına məhz Amaliya Pənahovanın sənətkarlı-

Çıxışlarda Azərbaycan kino və teatrının, ictimai fikrinin, incəsənət tarixinin müasir dövrünü xarakterizə edən güclü qadın obrazının özünəməxsus çalarlarından söz açıldı. Bu obrazları yaradan aktrisanın güclü xarakterə, əvəzsiz oyun üslubuna, seçkin ifa manerasına sahib olduğunu bildirdilər. Hələ ilk gənclik, tələbəlik illərindən gənc Amaliyanı efir-ekrandan, teatr səhnələrindən görən və elə o zamandan heyranına çevrildiklərini deyən əksər çıxışçılar aktrisanın simasında "zamanın gözəllik qarşısında gücsüzlüyü" etirafında bulundular.

Ara-sıra o illərə səyahət edib gənclik xatirələrini bölüşən çıxışçılar aktrisaya sevginin mayasında onun istedad və səhnə bacarığının, ecazkar ifaçılığının dayandığını, istedad və gözəllik vəhdətinin Amaliya Pənahovanı əvəzsiz edə bildiyini vurğuladılar.

> Gecənin yaddaqalan məqamlarından biri də "Unuda bilmirəm", "Təhminə və Zaur", "Sən həmişə mənimləsən" kimi tamaşalardan parçalar və ardınca Xalq artisti Samir Cəfərov və Əməkdar artist İlqar Muradovun həzin çıxışları idi. Sonda sənətkarın nəvəsinin çıxışı aktrisaya sevgi etirafı ilə bərabər, gecənin də ən güclü akkordu oldu. Çıxışı müşayiət edən foto görüntülər 70 illik bir ömrə qısa səyahət kimi göründü.

Beləcə, aktrisanın etirafı yüzlərlə insana ünvanlanaraq, bundan sonra da əsl sənətə və sənətkara məhəbbətin azalmayacağı həqiqətini bir daha anlatdı...

Həmidə

# Amaliya Pənahova - 70









